

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 22 iyun 2024-cü il №45 (2856) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezidentin Mətbuat Xidmətinin Məlumatı

İyunun 20-də ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında Antoni Blinken Ermənistan və Azərbaycan arasında sülh gündəliyinin irəlilədilməsi baxımından əldə olunmuş nəticələri təqdir edərək, ABŞ-ın iki ölkə arasında münasibətlərin normallaşdırılması prosesinə dəstəyini davam etdirməyə əzmli olduğunu vurğulayıb və tərəfləri tezliklə sülh müqaviləsini imzalamağa dəvət edib. Dövlət katibi ABŞ-ın Azərbaycan ilə ikitərəfli əlaqələrə verdiyi əhəmiyyəti qeyd edərək iqlim dəyişikliyi və enerji sahəsində birgə məqsədlərə nail olmaq yolunda ölkələrimiz arasındakı konstruktiv əməkdaşlığı vurğulayıb. Antoni Blinken ölkəsinin Azərbaycan ilə yenilənmiş və daha möhkəm ikitərəfli əlaqələri dəstəklədiyini deyib. Onu da əlavə edib ki, ABŞ Azərbaycanda keçiriləcək COP29-un uğurla nəticələnməsi üçün səylərini əsirgəməyəcək.

Prezident İlham Əliyev regionda sülhün təmin edildiyini, sülh müqaviləsinin əsasını təşkil edən prinsiplərin və onun mətninin təşəbbüskarının Azərbaycan tərəfi olduğunu qeyd edərək ikitərəfli əsasda normallaşma prosesi və sülh gündəliyinin irəli aparılması səylərinin davam etdirildiyini vurğulayıb. ABŞ-ın sülh gündəliyinə töhfə vermək əzmini yüksək qiymətləndirən dövlətimizin başçısı Ermənistanda konstitusiya, müvafiq qanunlar və ölkədaxili normativ-hüquqi aktlar əsasında Azərbaycana qarşı olan ərazi iddialarına son qoyulmasının sülh gündəliyinin irəli aparılması baxımdan vacibliyini qeyd edib.

Prezident İlham Əliyev artıq keçmişin qalığı olan münaqişə səhifəsinin tamamilə bağlanması üçün qeyri-funksional olan ATƏT-in Minsk qrupu və onunla bağlı olan bütün institutların fəaliyyətinə rəsmən xitam verilməsinin vaxtının çoxdan yetişdiyini əlavə edib.

Prezident İlham Əliyev enerji sahəsində ölkələrimiz arasında çoxillik uğurlu əməkdaşlığa toxunub, iqlim dəyişikliyi və COP29-a hazırlıq prosesi çərçivəsində ölkələrimizin nümayəndə heyətləri arasında səmərəli əməkdaşlıqdan məmnunluğunu ifadə edib və COP29-un uğurla nəticələnməsi üçün ABŞ-ın dəstək niyyətinə görə təşəkkür edib. Dövlətimizin başçısı Azərbaycanın da ABŞ ilə əlaqələrə əhəmiyyət verdiyini və ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsi və keyfiyyətcə yeni səviyyəyə qaldırılmasını dəstəklədiyini bildirib.

Telefon danışığı əsnasında ölkələrimiz arasında ali səviyyədə məktub mübadilələri, nümayəndə heyətlərinin qarşılıqlı səfərlərindən məmnunluq ifadə edilib, həmçinin insan hüquqları və demokratiya, ölkələrin daxili qanunlarının aliliyinə hörmət kimi məsələlərə dair fikir mübadiləsi aparılıb.

*Reportaj*

## Keşiyindəyik, Ana torpaq!




"N" hərbi hissəsinin artilleriya bölməsinin çöl dərsinin canlı şahidi oluruq. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ariz Babayev şəxsi heyətə məşğələnin mövzusunu, məqsədini və yerinə yetiriləcək tapşırıqları izah edir. Heyət nəfərləri onun dediklərini diqqətlə dinləyir, tapşırıqların icra ardıcıllığını öyrənirlər.

Təlimat başa çatdıqdan sonra heyət üzvləri şərti atəş mövqeyində öz yerlərini tuturlar. Oriyentirin seçilməsi ilə top komandiri hesablayıcını məlumatlandırır. Məşğələ rəhbərinin "döyüşə" komandasından sonra top komandiri bayrağı ilə heyətə işarə verir. Heyət nəfərləri öz vəzifələri üzrə artilleriya qurğusunu döyüşə hazır vəziyyətə gətirirlər. Tuşlayıcı oriyentirə uyğun olaraq topu hədəfə tuşlayır. Məşğələ rəhbəri icra edilən tapşırığın normativə uyğun olaraq yerinə yetirildiyini batareya komandirinə məruzə edir. Növbəti tapşırıq heyət üzvlərinin artilleriya vasitəsini "səfər" vəziyyətinə gətirməsi olur. Bu tapşırıq da batareyanın şəxsi heyəti tərəfindən operativ və dəqiq yerinə yetirilir. Bir sözlə, hər bir heyət nəfəri öz vəzifəsinin öhdəsindən bacarıqla gəlir. Tapşırıqları icra edən şəxsi heyətin peşəkarlığı həm də bölmənin yüksək döyüş hazırlığının göstəricisidir.

Məşğələ başa çatdıqdan sonra top heyəti ilə tanış oluruq. Məşğələ rəhbəri görülən fəaliyyətlərin tədris planına uyğun olaraq keçirildiyini, dərslərin həm sinif, həm də çöl şəraitində təşkil olunduğunu qeyd edir. "Ordumuzda döyüş hazırlığının yüksəldilməsi, şəxsi heyətin təcrübəsinin artırılması yuxarı komandanlıq tərəfindən qarşımıza qoyulan başlıca vəzifələrdəndir. Rəşadətli ordumuzun döyüş potensialında artilleriya bölmələrinin özünəməxsus çəkisi olduğu məlum həqiqətdir. Bunun üçün də qarşıya qoyulan tapşırığa əsasən, artilleriya bölmələrinin peşəkarlığının artırılması məqsədilə təcrübəli komandirlərimizin iştirakı ilə təlim və çöl çıxışlarında öz bilik və bacarıqlarımızı artırır, mənimsənilən praktiki və nəzəri biliklərimizi gənc əsgərlərimizlə bölüşürük. Onların hər biri tariximizə silinməz izlər qoyan artilleriyaçılarımız Səməd bəy Mehmandarovu, Əlağa Şıxlinskini, İsgəndər Aznaurovu özünə örnək bilərək xidmət edirlər. Bunun üçün də dərslərdə həvəslə və yüksək əhval-ruhiyyə ilə iştirak edir, öz ixtisas biliklərini artırırlar. Ordumuzun modernləşmə mərhələsi bu gün uğurla davam etdirilir. Müasir döyüşaparma üsul və vasitələrinin öyrənilməsi prosesinə komandirlərimiz tərəfindən mütəmadi nəzarət olunur. Bölməmizin hərbi qulluqçuları da öz növbəsində tədris olunan yenilikləri dərindən mənimsəyir və təlimlərdə qarşıya qoyulan tapşırıqları yüksək dəqiqliklə icra edirlər".

Batareyanın digər heyət üzvləri ilə də həmsöhbət oluruq. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Hüseyn Mahmudov bizimlə söhbəti zamanı bildirir ki, hərbi qulluqçu ixtisasının praktiki və nəzəri bilikləri ilə yanaşı, ona təhkim olunmuş silah və texnikanın da hər bir detalına, hissəsinə bələd olmalıdır. Hazırda keçirilən məşğələ şəxsi heyətin döyüş bacarıqlarını yüksəltməklə bərabər, onların öz ixtisaslarına sevgisini və marağını da artırır. Artilleriyaçı olmaq hərbi qulluqçudan möhkəm iradə, dözümlülük və yüksək fiziki göstəricilərə sahib olmağı tələb edir. Bölməmizin şəxsi heyəti komandirlərimizin rəhbərliyi altında müxtəlif hava şəraitində, günün müxtəlif vaxtlarında öz döyüşaparma və özünümüdafiə qabiliyyətini artırmaq məqsədi ilə həm dərslərdə, həm də təlim-məşq toplanışlarında iştirak edir. Təcrübəli komandirlərimiz hər bir heyət üzvünün öz vəzifəsinə uyğun olaraq formalaşmasında və özünü təkmilləşdirməsində mühüm pay sahibidirlər. Bizim də üzərimizə düşən əsas vəzifə komandirlərimizə bu mühüm işdə yardımçı olmaqdır".

Növbəti müsahiblərim gənc artilleriyaçılarımızdır. Əsgər İsmayıl Şükürov söhbətə başlayır. "Azərbaycan Ordusunun əsgəri olmaq üçün cəsur, məğlubedilməz və qalib olmalısan. Bu gün şanlı ordumuzun sıralarında xidmət etmək mənim üçün qürurvericidir. Vətən müharibəsi bizim şanlı Zəfər tariximiz oldu. Bu tarixi zəfəri yazan oğullarımızın sırasında olmağımdan duyduğum fəxarət hissini ifadə etməyimdə kəlmələr aciz qalır. Həyatımın ən yaddaqalan günləri məhz hərbi xidmət illərimdir. Bu mundiri geyinmək, təcrübəli komandirlərimlə bərabər xidmət etmək, yaxşı dostlar qazanmaq xidmətimin ən qiymətli məqamlarıdır.

**(Ardı 2-ci səhifədə)**

## Prezidentin köməkçisi: Fransanın militarizasiya siyasəti Ermənistanın daxilindəki revanşist qüvvələrin həvəsləndirilməsinə xidmət edəcək addımdır

Fransanın militarizasiya siyasəti Ermənistanın daxilində olan revanşist qüvvələrin həvəsləndirilməsinə xidmət edəcək bir addımdır. Ona görə də Fransanın Ermənistana hücum xarakterli, öldürücü silahlar təqdim etməsi və Ermənistan-Fransa hərbi əməkdaşlığının arealının genişləndirilməsi ciddi narahatlıq doğuran haldır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə müsahibəsində Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev səsləndirib.

Hikmət Hacıyev, həmçinin deyib: "Hesab edirik ki, Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvü olaraq daha məsuliyyətli siyasət həyata keçirməlidir. Xüsusilə beynəlxalq münasibətlərdə belə bir yanaşma var ki, işğal və təcavüz törətmiş dövlətlərə münasibətdə onların növbəti hərbiləşdirmə və militarizasiya proqramlarına müxtəlif məhdudiyyətlər tətbiq olunmalıdır. Nəzərə almalıyıq ki, Ermənistan Cənubi Qafqaz regionunda işğal və təcavüz törətmiş dövlətdir. Ona görə də işğalçı və təcavüzkar dövlətin yenidən silahlandırılması və militarizasiya siyasətinin həyata keçirilməsi heç bir halda məsuliyyətli hesab olunmur".

# Azərbaycan Ordusunun Baş Qərargah rəisinin Serbiyaya rəsmi səfəri

*Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin Serbiya Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-polkovnik Milan Moysiloviçin dəvəti ilə bu ölkəyə rəsmi səfəri başlayıb.*





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Belqrad şəhərində yerləşən Taşmaydan parkında Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə əklil qoyulub, xatirəsi ehtiramla yad edilib. Sonra Serbiya şairi və yazıçısı Milorad Paviçin heykəli ziyarət olunub, önünə gül dəstələri qoyulub, ehtiram nümayiş etdirilib.








Serbiya Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahında müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin rəsmi qarşılanma mərasimi keçirilib. Fəxri qarovulun qarşısından təntənəli keçiddən sonra Azərbaycan və Serbiyanın Dövlət himnləri səsləndirilib.

General-polkovnik Kərim Vəliyevin serbiyalı həmkarı ilə görüşü keçirilib.

Görüşdə hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib, qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Daha sonra general-polkovnik Kərim Vəliyev Serbiya Respublikasının müdafiə naziri cənab Bratislav Qaşiç ilə görüşüb.

Müdafiə naziri ilə görüşdə hər iki ölkə arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığa dair müzakirələr aparılıb.

Qeyd edək ki, keçirilən görüşlərdə Azərbaycan Respublikasının Serbiya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Kamil Xasıyev də iştirak edib.

* * *

Serbiyaya rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev rəhbərlik etdiyi nümayəndə heyəti ilə birgə "Yugoimport SDPR" şirkətini ziyarət edib.

Baş Qərargah rəisi şirkətin məhsulları ilə tanış olduqdan sonra döyüş sistemləri zavoduna gedib.

Azərbaycan nümayəndə heyətinə zavodun əsas fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilib.

Daha sonra "Rastko Nemanyiç" hərbi şəhərciyi və xüsusi əməliyyatlar briqadası ziyarət olunub.

Burada Azərbaycan Ordusunun Baş Qərargah rəisinə silah və texnika nümunələri təqdim edilib.

General-polkovnik Kərim Vəliyev sonda döyüş hazırlığı üzrə icra edilən fəaliyyətləri izləyib.







# Keşiyindəyik, Ana torpaq!



(Əvvəli 1-ci səhifədə)

Komandirlərimiz bizim təcrübəli döyüşçü kimi yetişməyimizdə mühüm pay sahibləridirlər. Bizim də üzərimizə düşən əsas vəzifə hərbi biliklərimizi artırmaq, hərbi intizamımızı qorumaq, qarşıya qoyulan tapşırıqları dəqiq vaxtında icra etməkdir. Bu gün gənc artilleriyaçı olaraq, Vətənin keşiyindəyik. Onu qorumaq həm övladlıq, həm də vətəndaşlıq borcumuzdur".

Əsgər Həsrət Orucov içdiyi anda hər zaman sadiq, Vətəninə və xalqına bağlı olacağını qeyd edir. "Üzərimə düşən vəzifəni dərindən anlayıb öz hərbi biliklərimi keçirilən dərslərdə, çöl məşğələlərində artırıram. Vətən hüdudlarını qorumağa tam qadir olmağı qarşıma ümdə vəzifə qoyaraq, xidmət edirəm. Bir zamanlar bizim üçün qorunan Vətənimizi bu gün biz qoruyuruq. Qoruyuruq ki, gələcək nəsil onu bütövlüklə bizdən təhvil alsın. Qoruyuruq ki, əhalimiz öz həyatını firavan yaşasın. Qoruyuruq ki, bayrağımız daim qürurla dalğalansın".

Sonuncu müsahibim Mərahim Hüseynov da praktiki məşğələdə təcrübəsini yaxşı mənada göstərmiş əsgərlərimizdəndir. "Komandirlərimiz hər zaman deyirlər ki, bizim ordumuz hərbçilərimizin sayəsində güclüdür. Döyüş bacarığımız və vətənpərvərlik hissimiz yüksəkdir deyə ordumuz məğlubedilməzdir. Mən də bu gün iftixar hissi keçirirəm ki, güclü və qalib ordunun əsgəriyəm. Ordumuza layiq əsgər, Vətənimə layiq övlad olmaq üçün səylə çalışıram. Vətəni qorumaq hər birimizin borcudur. Onun hər qarışını canımızdan əziz bilməliyik. Bu missiyanı uğurla yerinə yetirmək üçün özümü təkmilləşdirir, bacarıqlı döyüşçü kimi formalaşmaq üçün dərslərdə və məşğələlərdə aktiv iştirak edirəm. Peşəkar komandirlərimizin təcrübələrindən faydalanır, onların tövsiyələrini diqqətlə dinləyir, xidmətimizi layiqincə təşkil edirik".

**Kapitan**
**Fuad CƏFƏROV,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# Baş direktor İtaliyada səfərdədir



Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Baş direktor cənab Aqil Qurbanov İtaliya Respublikasına səfər edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, səfər çərçivəsində Baş direktor İtaliya Respublikasının müdafiə naziri cənab Quido Krosetto ilə görüşüb.

Azərbaycan ilə İtaliya arasında münasibətlərin strateji tərəfdaşlığa əsaslandığı qeyd olunan görüşdə hərbi, hərbi-texniki sahələrdə əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib.

Görüşdə, həmçinin birgə layihələr, eləcə də bir sıra digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin açıqlaması

*Media vasitələrində Fransa ilə Ermənistan arasında "Caesar" özüyeriyən artilleriya qurğularının alqı-satqısı barədə kontraktın imzalandığı haqqında məlumat verilir.*

Azərbaycan tərəfinin xəbərdarlığına rəğmən Fransanın Ermənistanı öldürücü və hücum təyinatlı artilleriya qurğuları və digər silah növləri ilə təchiz etməsi Fransanın Cənubi Qafqaz regionunda təxribatçı fəaliyyət aparmasının növbəti sübutudur.

Fransa Müdafiə Nazirliyi keçən ilin oktyabrında verdiyi açıqlamasında Ermənistana tədarük edilən hərbi texnikanın müdafiə xarakteri daşıdığını iddia etsə də, hazırkı hərbi sövdələşmə ilə Ermənistanın öldürücü silahlarla təchiz edilməsi Fransa rəhbərliyinin riyakarlığının növbəti təzahürüdür.

Cənubi Qafqaz regionunda militarizasiya və geosiyasi intriqa siyasəti yürüdən Makron rejimi Ermənistan ilə Azərbaycan arasında normallaşmaya və regionda davamlı sülhün təmin olunmasına maneə olur. Bu kimi destruktiv və qərəzli siyasətinə görə normallaşma və regional proseslərdən kənarda qalan Fransanın indiki rəhbərliyi bunu Azərbaycana bağışlaya bilmir və ona görə də pozucu siyasətini davam etdirir.

Ermənistan Azərbaycana qarşı hərbi təcavüz və işğal törətmiş dövlətdir. BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Fransa tərəfindən qanlı hərbi təcavüz törətmək təcrübəsi olan Ermənistanın yenidən silahlandırılması və Ermənistan rəhbərliyinin revanşizm siyasətini dəstəkləməsi siyasi məsuliyyətsizlik olmaqla bərabər yeni müharibəyə aparan yoldur.

Müstəmləkəçi imperiya olaraq Fransanın tarixən dünyanın müxtəlif yerlərində müharibə və münaqişə ocaqları yaratmaq kimi ikrah doğuran zəngin təcrübəsi vardır. Yeni Kaledoniya və digər dənizaşırı müstəmləkə ərazilərində baş verən prosеslər, yerli xalqların istismara məruz qoyulması, təbii sərvətlərinin talanması, irqçi siyasət nəticəsində həmin ərazilərin demoqrafik tərkibinin dəyişdirilməsi, etiraz aksiyalarının qan və silah gücünə yatırılması Makron rejiminin əsl mahiyyətinin göstəricisidir. Utancverici müstəmləkə irsinin qalığı olan bu kimi köklü problemləri həll etmək və neokolonializmə son qoymaq əvəzinə, Fransa Azərbaycana qarşı çirkli təbliğat və dezinformasiya kampaniyası aparır.

Bəyan edirik ki, Cənubi Qafqaz regionunda vəziyyətin gərginləşməsinə və yeni müharibə ocağının yaranmasına görə məsuliyyəti tam şəkildə revanşist siyasət yürüdən Ermənistan rəhbərliyi və Makron diktaturası daşıyacaqdır.

# Hərbi Nəşriyyatın ildönümü münasibətilə tədbir keçirilib







*Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının yaranmasının 30-cu ildönümünə həsr olunan tədbir keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirdə Şəxsi Heyət Baş idarəsinin zabitləri, Müdafiə Nazirliyinin mətbu orqanlarının şəxsi heyəti və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Hərbi orkestrin müşayiətilə Azərbaycan Respublikasının Dövlət Himni ifa edilib.



Şəxsi Heyət Baş İdarəsinin rəisi general-mayor Müşfiq Məmmədov iştirakçıları salamlayaraq şəxsi heyəti Hərbi Nəşriyyatın yaranmasının 30-cu ildönümü və Qurban bayramı münasibətilə təbrik edib.

Baş idarə rəisi mətbəənin yaranma tarixindən, keçdiyi inkişaf yolundan, Vətən müharibəsi dövründə icra etdiyi tapşırıqlardan danışıb. Hərbi Nəşriyyatın bütün növ çap materiallarının nəşr edilməsi üçün müasir texniki avadanlıqlarla təchiz edildiyini qeyd edib.

Tədbirdə Hərbi Nəşriyyatda istehsalatın inkişafına töhfə verən, vəzifə borcunu layiqincə yerinə yetirən hərbi qulluqçular və mülki işçilər mükafatlandırılıblar.

Sonra Hərbi Nəşriyyatın 30 illiyinə həsr olunan videoçarx nümayiş etdirilib.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs Ansamblının konsert proqramı ilə başa çatıb.

# "Strateji araşdırmalar və dövlət müdafiəsi idarəetmə akademik kursu"nun buraxılış mərasimi keçirilib

*Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun "Strateji araşdırmalar və dövlət müdafiəsi idarəetmə akademik kursu"nun növbəti buraxılışına həsr olunan mərasim keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Digər dövlət qurumlarının nümayəndələrinin də iştirak etdiyi buraxılış mərasimində Hərbi İdarəetmə İnstitutunun rektoru polkovnik Elnur Ələsgərli dinləyiciləri akademik kursu bitirmələri münasibətilə təbrik edib, kursun elmi mahiyyəti, ordu quruculuğu prosesində əhəmiyyətindən danışıb.



Qeyd olunub ki, tədris müddətində dinləyicilərə beynəlxalq münasibətlər, qlobal təhlükəsizlik, həmçinin xarici siyasətin, strategiya və müdafiənin planlaşdırılması, dövlət müdafiəsi və müdafiə resurslarının idarə edilməsinin əsaslarına dair mövzulardan mühazirələr oxunub, seminarlar, qrup çalışmaları və praktiki təcrübələr keçirilib.

Sonda məzunlara diplom və döş nişanları təqdim olunub, kurs birincisi tərəfindən yaş kötüyünə xatirə lövhəsi vurulub.

# Milli Qurtuluş Günü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib

*Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində 15 İyun - Milli Qurtuluş Günü münasibətilə silsilə tədbirlər keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bayram günündə şəxsi heyət ölkə ərazisindəki Heydər Əliyev mərkəzlərini, muzeyləri və abidələri ziyarət edib, Azərbaycan xalqının Ümummilli Liderinin şərəfli həyat yolu və fəaliyyətindən bəhs edən filmləri izləyib, həmçinin hərbi qulluqçular üçün müxtəlif mədəni-kütləvi tədbirlər təşkil olunub.

Şəhid övladlarının da iştirak etdiyi tədbirlərdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Azərbaycan xalqının taleyində mühüm əhəmiyyət kəsb edən, tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günü ilə bağlı hərbi qulluqçularla maarifləndirici söhbətlər aparılıb.

Qeyd edilib ki, otuz bir il əvvəl Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycana siyasi hakimiyyətə qayıdışı ilə respublikamızın həyatında yeni inkişaf dövrünün əsası qoyulub. Bu gün Ulu Öndərin Azərbaycanı zirvədən-zirvəyə, qələbədən-qələbəyə aparmaq ideyaları onun siyasi irsinin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tədbirlərdə, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində qazanılan şanlı Qələbənin, Qarabağ iqtisadi rayonunda keçirilən antiterror tədbirlərindən sonra respublikamızın ərazi bütövlüyünün tam təmin olunmasının tarixi əhəmiyyətindən danışılıb.

Sonra döyüş hazırlığında fərqlənən hərbi qulluqçulara fəxri fərmanlar təqdim olunub.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin kollektivlərinin, həmçinin incəsənət xadimlərinin iştirakı ilə konsert proqramları təqdim edilib.

* * *

Heydər Əliyev adına Hərbi İnstitutda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş tədbirdə Hərbi institutun zabit, müəllim heyəti və kursantlar iştirak etdilər.

Tədbiri açıq elan edən Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin zabiti baş leytenant Elçin Salmanov iştirakçıları Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından bəhs edən sənədli filmə baxmağa dəvət etdi.

Tədbir baş leytenant Elçin Salmanovun çıxışı ilə davam etdi: "1991-ci ilin oktyabrında müstəqilliyini yenidən bərpa edən Azərbaycanda hakimiyyətdə olan qüvvələrin idarəetmə səriştəsizliyindən respublikamızın müstəqilliyinə ciddi təhlükə yaranmışdı. Vətənin bu ağır günündə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi (1969-1982-ci illər) olmuş, daha sonra Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində çalışmış, Moskvada istefa verdikdən sonra 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi bu diyarın xilası yolunda dövləti idarəetmə təcrübəsi və bacarığı nümayiş etdirən, müdrik, uzaqgörən dahi lider, siyasi dühası ilə dünya şöhrəti qazanan böyük tarixi Şəxsiyyət Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtdı. 1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikası Milli Məclisinin sədri seçildi. Beləliklə, 15 İyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil edildi".

Sonra çıxış edənlər Azərbaycan xalqının Ümummilli Liderinin yorulmaz fəaliyyətinin Azərbaycan tarixində silinməz izlər qoymasından, onun siyasətinin layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərkərdəliyi ilə ərazi bütövlüyümüzün tam təmin olunmasından danışdılar.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

Azərbaycan Hərb Tarixi Muzeyində 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş "Xalqımızın taleyini dəyişən tarixi gün" adlı tədbiri giriş sözü ilə açan istefada olan polkovnik Əzizağa Qənizadə bildirdi ki, Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər var ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günüdür. "Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür: XX əsrin sonlarında müstəqilliyi bərpa etmək kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Ulu Öndər Heydər Əliyevdir. Beləliklə, 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi və böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü".



Əzizağa Qənizadə əlavə etdi ki, Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. O, milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Bütün manelərə baxmayaraq ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi.

Daha sonra çıxış edən Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı-baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Vahid İsmayılov bildirdi ki, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı. O əlavə etdi ki, qurucusu Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev olan şanlı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində parlaq Qələbə qazanaraq işğal altındakı torpaqlarımızı azad etdi, ölkəmizin ərazi bütövlüyü təmin olundu. 44 günlük Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfər və digər hərbi-siyasi, iqtisadi, mənəvi uğurların əsası, əslində, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra qoyulub.

Tədbirin bədii hissəsində "İbrahim Əbilov adına Mədəniyyət Evi"nin üzvlərinin ifasında vətənpərvərlik mövzusunda mahnılar səsləndirildi.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda Qurban bayramı münasibətilə tədbirlər keçirilib

Azərbaycan Ordusunun qoşun növləri, birlik və birləşmələrində Qurban bayramı münasibətilə tədbirlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirlərdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və müdafiə naziri general-polkovnik Zakir Həsənovun Qurban bayramı münasibətilə təbrikləri şəxsi heyətə çatdırılıb.

Hərbi qulluqçuların iştirakı ilə qurbanlıqlar kəsilib, onlar üçün bayram süfrələri təşkil edilib.

Müdafiə nazirinin tapşırığına əsasən Qurban bayramı münasibəti ilə Bakı şəhərində, eləcə də respublikamızın digər bölgələrində şəhidlərimizin məzarları ziyarət olunub, onların ailə üzvlərinə və hərbi əməliyyatlar zamanı sağlamlığını itirən döyüşçülərimizə baş çəkilib, onlara Müdafiə Nazirliyinin rəhbərliyinin təbrikləri çatdırılıb və bayram sovqatları təqdim olunub.



# Şərəfli yolda atılan ilk addımlar

*Milli Müdafiə Universitetinin Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantlarının 2024-cü il üzrə buraxılışına həsr olunan təntənəli mərasim keçirildi.*



Tədbirdə Müdafiə Nazirliyinin nümayəndələri, liseyin rəhbərliyi, professor-müəllim heyəti, kursantlar, təhsil ocağını müxtəlif illərdə bitirmiş məzunlar, valideynlər, ictimaiyyət və media nümayəndələri iştirak etdilər.

Tədbirdən əvvəl Milli Müdafiə Universitetinin və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəhbərliyi tərəfindən Hərbi liseydə ucaldılan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Cəmşid Naxçıvanskinin büstləri ziyarət olundu.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla anıldıqdan və hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa edildikdən sonra tədbir açıq elan olundu. Liseyin Döyüş Bayrağı təntənəli surətdə meydana gətirildi.

Milli Müdafiə Universitetinin rektoru polkovnik Gündüz Əbdülov çıxış edərək əlamətdar gün münasibətilə məzunları Müdafiə Nazirliyinin rəhbərliyi və Milli Mudafiə Universitetinin kollektivi adından təbrik etdi, onlara gələcək xidmətlərində uğurlar arzuladı.

Polkovnik Gündüz Əbdülov qeyd etdi ki, bu buraxılış Azərbaycan dövlətçiliyi tarixində misilsiz xidmətləri olmuş Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü ərəfəsində baş verir. Milli zabit kadrlarının hazırlanması məqsədilə Ulu Öndər Heydər Əliyevin böyük çətinliklərə baxmayaraq yaratdığı Cəmşid Naxçıvanski adına Hərbi Liseyin bu gün də əbədiyaşar komandanın layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunduğunu vurğuladı.

"Ulu Öndərin təməlini qoyduğu bu sərkərdə ocağında təhsil almış bir şəxs kimi qarşınızda çıxış etmək mənim üçün qürurvericidir. Cəmşid Naxçıvanski adına Hərbi Lisey yarandığı gündən gənclərin milli hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında, onların hərbçi peşəsinə yiyələnməsində və ən əsası ordumuzun peşəkar milli zabit kadrları ilə təmin edilməsində əvəzsiz rol oynayıb. Sizin hər birinizə yaxşı məlumdur ki, Ulu Öndər Heydər Əliyev bu təhsil ocağının yaradılması üçün böyük təzyiqlər və sınaqlarla qarşılaşıb. Çıxışlarında da dediyi kimi bu liseyi doğma övladı kimi sevib və hər zaman böyük qayğı göstərib.

Əziz məzunlar, bu gün siz dövlətimizin və xalqımızın müdafiəçiləri, milli və mənəvi dəyərlərimizin daşıyıcıları, parlaq gələcəyimizin təminatçıları kimi yeni bir mərhələyə yola çıxırsınız. Xüsusilə qeyd edim ki, siz ərazi bütövlüyü tam şəkildə bərpa olunan müstəqil Azərbaycanın ilk məzunlarısınız. Sizdən əvvəlki nəsil bu gün üçün mübarizə apardı və onların fədakarlıqlarının əbəs olmadığını sübuta yetirmək üzrə müqəddəs əmanəti təhvil aldınız. Məhz bu şüurla növbəti təhsil pilləsinə böyük məsuliyyətlə yanaşmalı, hərb sənətini dərindən öyrənməli və mənimsəməlisiniz. Bir daha sizi məzun olmağınız münasibətilə təbrik edir, hər birinizə möhkəm cansağlığı və növbəti təhsil pilləsində uğurlar arzulayıram. Üzərinizdə əməyi keçən dəyərli valideynlərinizə, müəllimlərinizə və zabit heyətinə minnətdarlığımı bildirirəm", - deyə polkovnik G.Əbdülov qeyd etdi.



Türkiyə Respublikasının Milli Müdafiə Universitetinin rektor müavini professor Talat Canbolat çıxış edərək iki ölkənin ordu quruculuğunda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Mustafa Kamal Atatürkün rolunu, həmçinin Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlığın son dövrdə daha da inkişaf etdiyini vurğuladı.

Sonra Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən XI siniflərin buraxılış imtahanında yüksək bal toplayan kursant Əlihəsən Musayev kursantlar adından çıxış edərək onlara göstərilən etimadı doğruldacaqlarını, növbəti ali hərbi təhsilləri dövründə daha da inamla çalışaraq gələcəkdə peşəkar zabit olacaqlarını, Vətən, dövlət və xalq qarşısında vəzifələrini layiqincə yerinə yetirəcəklərini, hərbçi şərəfini hər zaman uca tutacaqlarını bildirdi.



Çıxışlardan sonra kursu müvəffəqiyyətlə bitirən kursantlara liseyin döş nişanı təqdim olundu, təhsildə və intizamda fərqlənənlər fəxri fərmanlarla mükafatlandırıldılar. Kurs birincisi kursant Arif Əsgərov tərəfindən yaş kötüyünə 2024-cü ilin məzunlarının rəmzi simvolu vuruldu.

Daha sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Döyüş Bayrağı 2024-cü ilin məzunları tərəfindən növbəti buraxılışın kursantlarına təhvil verildi.

Hərbi orkestrin müşayiəti ilə kursantlar "Naxçıvanskilər marşı"nı ifa etdi, təntənəli marşla tribunanın önündən keçdilər.

Buraxılış mərasimi başa çatdıqdan sonra kursantlardan birinin zabitə yaxınlaşaraq "Cənab polkovnik-leytenant, oğlunuz kursant Məmmədli Cəmşid Naxçıvanski adına Hərbi Liseyi müvəffəqiyyətlə bitirdi", - deyə məruzə etməsinin şahidi oldum. Qürurla məzun oğlunu bağrına basıb təbrik edən ataya yaxınlaşdım. Öyrəndim ki, polkovnik-leytenant Rüfət Məmmədovun özü də 1998-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunu olub. Zabit övladı Ceyhun Məmmədlinin onun kimi hərbi peşəni seçdiyinə görə qürurlu olduğunu qeyd etdi. "Bu gün mənim üçün sevincli bir gündür. Oğlum 26 il öncə bitirdiyim Cəmşid Naxçıvanski adına Hərbi Liseyin bu gün məzunu olur. Övladımın timsalında bütün məzunları təbrik edir, onlara hər zaman Vətənə sədaqətlə xidmət etmələrini, seçdikləri bu çətin və şərəfli yolda möhkəm olmalarını tövsiyə edirəm", - deyə zabit bildirdi.



Kursant Niyaz Sarıyev Sumqayıt şəhərində anadan olub, orada təhsil alıb. 9-cu sinfi bitirdikdən sonra hərbçi olmaq istəyi ilə sənədlərini toplayaraq Cəmşid Naxçıvanski adına Hərbi Liseyə müraciət edib. İmtahanlarda müvəffəqiyyət qazanaraq liseyə qəbul olub. Hərbi vətənpərvərlik mövzusunda çəkilən filmlərdən təsirlənərək hərbçi olmaq istədiyini deyən Niyaz Sarıyev bu peşəni seçdiyi üçün çox sevindiyini bildirdi. Kursantın atası Vüsal Sarıyev də övladının hərbçi olmaq istəyini daim dəstəklədiyini qeyd etdi. "Oğlum Niyaz hələ uşaq yaşlarından hərbçi olmaq istədiyini deyirdi. Hərbi məzmunlu filmlərlə, kitablarla maraqlanırdı. Bunlarla yanaşı, idmana da böyük marağı var. Liseyə qəbul olmamışdan öncə idmanın cüdo və qaydasız döyüş növü ilə məşğul olub. Hətta qaydasız döyüş idman növündə bir dəfə Respublika, iki dəfə isə Bakı şəhəri üzrə birincilik qazanıb. İnanıram ki, oğlum bundan sonrakı təhsilində də uğurlar qazanıb, zabit adını qazanacaq və Azərbaycan Ordusunun şərəfli, savadlı zabitlərindən biri olacaq", - deyə valideyn V.Sarıyev bildirdi.



Kursant Tərxan Rzayev isə Gəncə şəhərində doğulub. 2022-ci ildə yüksək balla Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub. Niyə hərbi qulluqçu olmaq istədiyini soruşduqda "Hər bir azərbaycanlıda qəhrəman, cəsur, hərbçi olmaq qanı var", - dedi. Növbəti ali hərbi təhsilini qardaş Türkiyə Respublikasında "Kara Harp Okulu"nda davam etdirmək, oranı birinciliklə bitirib Azərbaycan Ordusunda xidmət edərək Vətənə, dövlətə faydalı zabit olmaq istədiyini deyən Tərxan Rzayev bunun üçün var gücü ilə çalışacağına söz verdi.



Kursant Tamerlan İsmayılov Xızı rayonunda anadan olub. Bakı şəhərində 274 saylı tam orta məktəbdə təhsil alıb. Yüksək balla Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olub. Hərbçi pilot olmaq istədiyini deyən Tamerlan hədəfinə çatmaq üçün çox çalışacağını dedi. "Bu gün biz kursantlar üçün əlamətdar və qürurverici bir gündür. Hərbin ilkin sirlərinə yiyələndiyimiz bu hərbi təhsil ocağının məzunu olduq. Qarşıda daha da məsuliyyətlə çalışacağımız günlər var. Sevinirəm ki, əsl vətənpərvər, Vətən torpağına olan sevgisini əməlləri ilə sübut etmiş, döyüş meydanında qəhrəmanlıq nümunələri göstərmiş zabitlər tərəfindən bu şərəfli yolda lazımi biliklərə yiyələnmişik. Kursant yoldaşlarım adından söz verirəm ki, gələcəkdə harada olmağımızdan asılı olmayaraq, Vətən, dövlət, xalq qarşısında üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirəcək, hərbçi şərəfini uca tutacağıq. Vətənimizin müdafiəsində məğrur dayanacaq, şəhid qardaşlarımızdan bizə əmanət olan torpaqlarımızı göz bəbəyimiz kimi qoruyacağıq", - kursant T.İsmayılov dedi.

Kursant Allahverdi Əliyev də məzun olmağın sevincini yaşayır. Vətən müharibəsindən sonra hərbçi olmağa qərar verdiyini deyir. "Mənə elə gəlir ki, bütün peşələr gərəklidir. Ancaq hərbçi olmaq daha məsuliyyətli, daha vacibdir. Çünki ölkəmizin ərazi bütövlüyünün qorunması məhz hərbi qulluqçuların üzərinə düşən vəzifədir. Bu şərəfli peşəyə sahib olmaq istədiyimi dedikdə valideynlərim mənim qərarımı dəstəklədilər. Onların mənəvi dəstəyi ilə imtahanlarda müvəffəqiyyət qazanaraq, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunu oldum. Söz verirəm ki, bundan sonra da ali hərbi təhsil zamanı dərslərimə məsuliyyətlə yanaşacaq, valideynlərimin mənə olan inamını doğruldaraq, Azərbaycan Ordusunun şərəfli zabiti olacağam", - deyə A.Əliyev bildirdi.

Kursantlarımıza mən də gələcək həyatlarında uğurlar arzulayıb, onlardan ayrıldım. Buradakı məzunları tək bir amal birləşdirir - Vətən torpaqlarını müdafiə etmək və Ali Baş Komandanımızın döyüş əmrinə hər an hazır olmaq.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

*Milli Qəhrəmanlarımız*

# Qəhrəmanlara ehtiramımız tükənməzdir

***Bütün tarixi dövrlərdə xalqını, Vətənini sevən, xidmətləri ilə seçilənlər həmişə əbədi yaşamaq haqqı qazanıblar. Bu tale, qismət hər kəsə nəsib olmur. Bu haqqı qazananlar həyatlarını, ömürlərini xalqına, Vətəninə həsr etməyi bacaran, seçdikləri yoldan dönməyənlərdir. İstər Birinci Qarabağ müharibəsi, istərsə də 44 günlük Vətən müharibəsi bir daha göstərdi ki, Vətənin, xalqın, dövlətin gələcəyi naminə həyatlarını qurban verməyə hazır olan yüzlərlə qəhrəman oğul var. Belə vətənsevərlərdən biri də Rəşad Akif oğlu Mirabovdur.***



Mingəçevir şəhərinin yetirməsi olan Rəşad Vətən qarşısında borcunu şərəflə, vicdanla, əsl vətənpərvərliklə yerinə yetirdiyinə görə Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüb. Bütün bunlar barədə Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin və Mingəçevir şəhər Təhsil sektorunun birgə təşkilatçılığı ilə qəhrəmanın adını daşıyan məktəbdə keçirilən xatirə gecəsində ətraflı danışıldı. Tədbirdə şəhər ictimaiyyətinin nümayəndələri, Vətən müharibəsi ikştirakçıları, müəllimlər, məktəblilər və şəhidin valideynləri iştirak etdilər.

Ulu Öndər Heydər Əliyevin və Vətənimizin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Dövlət Himni səsləndirildi.




Milli Qəhrəmanın mənalı həyatı və keçdiyi döyüş yolundan, həmçinin müstəqilliyimizin, dövlətçiliyimizin müdafiəsində göstərdiyi şücaətlərdən danışıldı. Bildirildi ki, Rəşad Mirabov kimi mərd oğullar xalqımızın tarixində əbədi yaşayacaqlar. O, 3 may 1975-ci ildə Mingəçevir şəhərində anadan olub. Mingəçevir şəhər 7 saylı orta məktəbdə təhsil alıb. 1993-cü ildə hərbi xidmətə göndərilib. Hərbi təlim mərkəzlərində hazırlıq keçdikdən sonra xüsusi təyinatlı hərbi hissədə xidmətə başlayıb. Həmin vaxtlar cəbhə bölgəsində gərgin döyüşlər davam edirdi. 1994-cü ilin yanvarında onları Tərtər bölgəsinə göndəriblər. Burada döyüşlərə qatılan Rəşad Mirabov və silahdaşları düşmənə qarşı fəal iştirak ediblər. Füzuli bölgəsində də döyüşlərdə düşmənə qarşı uğurlu əməliyyat keçiriblər. O, Vətən andına sadiq qalaraq əsgəri xidmətini şərəflə yerinə yetirib.

17 mart 1995-ci ildə müstəqilliyimizə, dövlətçiliyimizə qarşı dövlət çevrilişinə cəhd edən qüvvələrin qarşısının alınmasında onun da xidmət etdiyi hərbi hissənin şəxsi heyəti böyük fədakarlıqlar göstərib. Ölkəmizə qarşı çevrilən bədxah qüvvələrin niyyətləri Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə puç edilir. Konstitusiya və dövlət quruluşunun müdafiəsində vətəndaşlıq borcunu yerinə yetirərkən qəhrəmancasına şəhid olub. 4 aprel 1995-ci ildə ölümündən sonra ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilib. Mingəçevir Şəhidlər xiyabanında dəfn edilib. Təhsil aldığı məktəb onun adını daşıyır, məktəbin həyətində isə xatirəsinə ehtiram olaraq büstü qoyulub. Məktəblilər hər gün onun xatirəsini yad edirlər.

Məktəbin direktoru Anar İsmayılov qədim və zəngin tarixə malik olan xalqımızın qəhrəmanlıq ənənələrinin davam etdirilməsindən danışaraq bildirdi ki, vətənpərvər oğullarımızın qəhrəmanlıq yolu hər kəsə örnəkdir.



“Doğru deyiblər ki, tarix təkrar olunur. Əsrlər boyu torpaqlarımız Vətənin mərd, cəsur, qəhrəman oğulları tərəfindən qorunub. Yüz illər keçsə də, bu müqəddəs missiya heç zaman dəyərini itirməyib. Vətən müharibəsi, dövlətçiliyimizə qarşı çevriliş cəhdlərinin qarşısının alınması göstərdi ki, minlərlə oğul Vətənimizin, dövlətimizin yaşaması üçün canından keçməyə həmişə hazırdır. Belə də oldu, qəhrəman oğulların Vətən sevgisi qalib gəldi. Onlarla fəxr edirik, qürur hissi keçiririk. Biz qəhrəman oğulların həyatlarını özümüzə əsl vətənpərvərlik nümunəsi hesab edirik. Bu gün xatirəsini yad etdiyimiz məktəbimizin məzunu Rəşad Akif oğlu Mirabov da yurdunu, xalqını canından artıq sevən vətənpərvər qəhrəmanlardandır. Onların xidmətləri heç zaman unudulmayacaq. Çalışacağıq ki, şagirdlərimiz onlar kimi həyatda doğru yol seçsinlər, müstəqil dövlətimizin layiqli vətəndaşları olsunlar”.



Milli Qəhrəmanın valideynləri çıxış edərək dövlət rəhbərliyi tərəfindən onlara göstərilən yüksək diqqət və qayğıya görə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildirdilər.

Sonda "Əsgərə məktub" layihəsi çərçivəsində tədbir iştirakçıları əsgərlərə məktublar ünvanladılar. Şagirdlərə hərbi təhsil haqqında maarifləndirici bukletlər təqdim olundu.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xatirəsi yad edilib







***İyunun 18-də Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun torpaqlarımızın müdafiəsi uğrunda canından keçərək şəhidlik zirvəsinə yüksəlməsinin ildönümünə həsr olunmuş anım mərasimi keçirilib.***

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimdə hərbi qulluqçular igidimizin məzarını ziyarət edib, üzərinə əklil və gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Anım mərasimində çıxış edənlər Azərbaycanın tarixən öz qəhrəmanları ilə seçildiyini qeyd edib, M.İbrahimovun göstərdiyi şücaət və igidlik nümunələrindən danışıblar. Vətən yolunda canından keçərək gənclərə örnək olacaq bir addım atan qəhrəmanımızın vətənpərvərlik və mübarizlik hissinin yüksək olduğu diqqətə çatdırılıb.

Qeyd olunub ki, M.İbrahimovun göstərdiyi rəşadət Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib. Mübariz İbrahimov ölümündən sonra dövlətimizin başçısının müvafiq Sərəncamı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

## “Ən yaxşı zenit-raket artilleriya batareyası” adı uğrunda yarış keçirilib



2024-cü il üçün hazırlıq planına əsasən, Hava Hücumundan Müdafiə bölmələrində "Ən yaxşı zenit-raket artilleriya batareyası" adı uğrunda yarış keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, "Ən yaxşı zenit-raket artilleriya batareyası" adı uğrunda keçirilən yarışın əsas məqsədi şəxsi heyətin bilik və bacarıqlarının artırılması, həmçinin komandir heyətinin artilleriya bölmələrinin idarəedilməsi vərdişlərinin təkmilləşdirilməsidir.



Üç mərhələdə keçirilən yarışda hərbi qulluqçuların ixtisas hazırlığı üzrə nəzəri, praktiki bilik və bacarıqları, eləcə də batareyanın döyüş hazırlığı və uçot sənədləri yoxlanılıb. Yarışın sonuncu mərhələsində praktiki olaraq batareyanın döyüş hazırlığı, atəşin idarəolunması və atəş mövqelərinin tutulması üzrə tapşırıqlar icra edilib.

Yarışın ümumi nəticələrinə əsasən qaliblər müəyyən olunub.

## Radiasiya, kimyəvi və bioloji mühafizə bölmələri ilə taktiki-xüsusi təlim keçirilib



Cari ilin hazırlıq planına əsasən, radiasiya, kimyəvi və bioloji mühafizə bölmələrinin şəxsi heyəti ilə səhra şəraitində taktiki-xüsusi təlim keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, ssenariyə uyğun olaraq, təlimə cəlb olunan bölmələr döyüşə hazırolma dərəcəsinə gətirilib, döyüş təyinatı rayonuna çıxarılıb.

Təlimdə müdafiə əməliyyatının radiasiya, kimyəvi və bioloji mühafizə tapşırıqlarının planlaşdırılması, bölmələrə tapşırıqların çatdırılması üzrə praktiki fəaliyyətlər məşq etdirilib.

Radiasiya və kimyəvi kəşfiyyat bölmələrinin qüvvələri ilə mövcud şəraitin izlənilməsi və qiymətləndirilməsi həyata keçirilib, şərti düşmənin kütləvi qırğın silahı tətbiq etməsinə hazırlığı vaxtında aşkar edilərək qabaqlayıcı tədbirlər görülüb, həmçinin radiasiya, kimyəvi və bioloji çirklənmə şəraitində fəaliyyət göstərən bölmələrin təhlükəsizliyi təmin edilib.

Təlimin keçirilməsində əsas məqsəd komandirlərin bilik və bacarıqlarını təkmilləşdirmək, həmçinin döyüşün hərtərəfli təminatı və qarşılıqlı fəaliyyətin təşkilində təcrübə qazanmalarına imkan yaratmaqdır.

# Xəbərlər: hadisələr, faktlar

### Türkiyə müdafiə sənayesinin yenilikləri Avropanın ən böyük silah sərgisində təqdim olunub



Türkiyənin aparıcı müdafiə şirkətlərinin istehsal nümunələri iyunun 17-də Paris ətrafında açılan "Eurosatory 2024" Avropanın ən böyük silah və hərbi texnika sərgisində nümayiş olunub.

Sərgidə dünyanın 60-dan çox ölkəsindən yüzlərlə şirkət iştirak edir, "Eurosatory 2024" platformasına dörd gün ərzində dünyanın 96 ölkəsindən 250-yə yaxın nümayəndə heyəti ziyarət etməyi planlaşdırır.

Sərgidə Türkiyənin ən böyük stendlərindən biri "Roketsan" şirkətinin pavilyonu olub. Pavilyonda MAM-C, MAM-L IIR və MAM-T IIR mini qanadlı raketləri, OMTAS kompleksləri, UMTAS-GM raketləri, SUNGUR və HİSAR-O hava hücumundan müdafiə sistemləri, müxtəlif mənzilli raketlər daxil olmaqla onlarca məhsul haqqında məlumat təqdim edilib.

"Roketsan"ın baş direktoru Murat İkinci jurnalistlərlə söhbətində bildirib ki, türk mühəndislərinin yaratdıqları nümunələr NATO standartlarına uyğundur. "Ölkəmizdə istehsal olunan bir çox silah növünə xaricdə yüksək tələbat var. Bu cür sərgilər imkanlarımızı dünyaya təqdim etmək üçün gözəl fürsətdir", - deyə Murat İkinci vurğulayıb.

### NATO nüvə silahlarının döyüşə hazır vəziyyətə gətirilməsini müzakirə edir



NATO-ya üzv ölkələr nüvə silahının hazır vəziyyətə gətirilməsi ilə bağlı məsləhətləşmələrə başlayıb.

Bu barədə Britaniyanın "The Daily Telegraph" qəzetinə müsahibəsində Alyansın baş katibi Yens Stoltenberq bildirib.

"Mən nə qədər nüvə başlığının işlək olması və onların necə saxlanması barədə əməliyyat təfərrüatlarını açıqlamayacağam. Bu məsələlərə bağlı məsləhətləşmələr aparırıq", - deyə o bildirib.

Stoltenberqin sözlərinə görə, NATO nüvə silahı olmayan dünya istəyir: "Nüvə silahı olduğu müddətdə biz nüvə ittifaqı olaraq qalacağıq, çünki Rusiya, Çin və Şimali Koreyanın nüvə silahına malik olduğu və NATO-nun olmadığı dünya təhlükəli dünyadır".

### Polşanın Baltik sahillərində NATO-nun taktiki təlimləri başlayıb



NATO-nun 12 ölkəsindən minə yaxın hərbçi Polşanın Baltik sahillərində keçirilən təlimlərdə iştirak edir.

PAP agentliyi xəbər verir ki, "EURETEX 24" taktiki təlimi iki ildən bir keçirilir.

Məlumata görə, iki həftəlik təlimdə Almaniya, İspaniya, Polşa, İtaliya, Rumıniya, Çexiya, Danimarka, Belçika, Macarıstan, Estoniya, Litva, ABŞ-dan olan əsgərlər iştirak edirlər.

Təlim zamanı hərbi qulluqçular hərbi mühəndislik, dalğıc, partlayıcı maddələrin zərərsizləşdirilməsi, kimyəvi və bioloji müdafiə, həmçinin meteorologiya və okeanoqrafiya kimi tapşırıqları yerinə yetirəcəklər.

### Niger uran və neft yataqlarını qorumaq üçün ordusunu 100 minə çatdıracaq



Niger hakimiyyəti uran və neft yataqlarını qorumaq üçün silahlı qüvvələrin sayını 100 min nəfərə çatdırmaq niyyətindədir.

Ordunun sayının 2030-cu ilə qədər artırılması planlaşdırılır.

Agentlik qeyd edir ki, buna səbəb bir neçə onilliklər ərzində mədən əməliyyatlarını təhdid edən terrorçuların aktiv hücumları ilə izah olunur. Niger neftinin ixrac olunduğu Niger-Benin neft kəməri də daxil olmaqla, digər strateji əhəmiyyətli obyektlər də mühafizəyə məruz qalır.

**AZƏRTAC-ın materialları əsasında**

*Atəş hazırlığı*

## Vətən torpaqlarının layiqli müdafiəçiləriyik



Ordumuzun bütün bölmələrində şəxsi heyətin döyüş hazırlığının artırılması, döyüş vərdişlərinin daha da təkmilləşdirilməsi həmişə diqqət mərkəzindədir. Bu səbəbdən Azərbaycan Ordusu illərdir ki, regionun ən güclüsü statusunu qoruyur, dünyanın ən qüdrətli orduları sırasında layiqli yerini tutmaqdadır.

Qazanılan nailiyyətlərin daha da artırılması məqsədilə tədris ili ərzində müxtəlif miqyaslı ölkədaxili və beynəlxalq təlimlər planlaşdırılır, bölmələrdə günün nizam qaydalarına uyğun olaraq atəş hazırlığı, taktiki hazırlıq və digər fəaliyyətlərlə əlaqəli dərslər keçirilir. Bu dərslərdə şəxsi heyət hərbi sirlərə yiyələnir, bilik və bacarıqlarını artırır, döyüş qabiliyyətini yüksəldir. Nəticədə hər bir əsgər bacarıqlı Vətən müdafiəçisi kimi formalaşır. Dərslərdə mənimsədikləri nəzəri bilikləri sonra atış çalışmaları və təlimlərdə təkmilləşdirərək, mühüm təcrübə qazanırlar. Bu onun göstəricisidir ki, ordumuzda döyüş hazırlığının artırılmasına yönəldilən bütün fəaliyyətlər yüksək peşəkarlıqla təşkil olunur, böyük həvəslə və məsuliyyətlə icra edilir.

"N" hərbi hissəsində günün nizam qaydalarına əsasən təşkil olunan dərsdə əsgərlər leytenant Ayxan Xalıqverdiyevin nəzarəti altında atəş hazırlığı dərsində fəal iştirak edirdilər. Belə məşğələlər də döyüş hazırlığının ayrılmaz hissəsi hesab edilir. Şəxsi heyətin hərbi intizamı da dərsin düzgün təşkilinin nəticəsi idi.

Əsgərlərə avtomatın natamam sökülüb-yığılması qaydasını, təyinatını danışan zabit silahın hissə və mexanizmlərinin iş prinsiplərini izah edir, verilən sualları ətraflı cavablandırırdı. Hiss olunurdu ki, silahların öyrənilməsinə yönəlmiş məşğələ yüksək səviyyədə təşkil olunub.

Öyrəndik ki, leytenant Ayxan Xalıqverdiyev Vətən müharibəsi iştirakçısıdır. Tarixi torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə kiçik çavuş rütbəsində iştirak edib, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Leytenant Ayxan Xalıqverdiyev keçirilən dərslə bağlı vurğuladı ki, əsgərlər atəş hazırlığı dərslərinə hər zaman böyük maraq və həvəslə yanaşır, fəallıq göstərirlər. Anlayırlar ki, döyüşdə silah onun ən yaxın dostuna çevrilir. "Bütün şəxsi heyət avtomatı sərbəst şəkildə normativə uyğun sökülüb-yığılmasını icra edir. Silahın təyinatını, hissələrini, zərbə-tətik mexanizmini əhatələyən bilikləri artıq tam şəkildə mənimsəyiblər. Onlar atəş hazırlığı dərslərində çalışqanlığı və təmkinliyi inkişaf etdirir, şəxsiyyət və döyüşçü kimi formalaşırlar", - zabit dedi.



Məşğələni təmkinlə dinləməəri təsdiqləyirdi ki, əsgərlər hərbin sirlərinə dərindən yiyələnməyə böyük maraq göstərirlər.

Hərbi xidmətə Ağdaş rayonundan çağırılan əsgər Azər Hüseynov hərbi xidmət haqqında söz açdı: "Hərbi xidmətdə yüksək intizama yiyələnərək, bir sıra müsbət keyfiyyətlər qazanırıq. Bizə hərbi intizam, dözümlülük, dəqiqlik, liderlik qabiliyyətləri aşılanır, yoldaşlıq, birlik hisslərimiz güclənir. Digər əsgər yoldaşlarım kimi, mən də yaradılan şəraitdən və qayğıdan çox razıyam. Keçirilən dərslərə böyük maraq göstərirəm, komandirlərimizin aşıladığı bilikləri həvəslə mənimsəyirəm. Qalib Azərbaycan Ordusunun əsgəri adına layiq olmaq üçün bütün gücümü səfərbər edirəm".

Əsgərlər Elsəvər Bağırov, Samir Çobanov, Mahir Balakişiyev, Saleh İsmayılov və başqaları dedilər ki, qürurluyuq və sevinirik ki, Azərbaycan Ordusunun əsgəriyik, Vətən torpaqlarının layiqli müdafiəçiləriyik".

**Baş leytenant İbrahim MƏMMƏDBƏYOV "Azərbaycan Ordusu"**

**Rəşid Faxralı**

### Sizi döyşlərə apardı yollar

Əsgər nəfəsiydi oyadan yeri,
Sizi döyüşlərə apardı yollar.
Oyanınca sizə baxdı dan yeri,
Sizi döyüşlərə apardı yollar.

Yal-yamacda dolaşırdı küləklər,
Dərə keçib, yal aşırdı küləklər,
Kola-kosa daraşırdı küləklər,
Sizi döyüşlərə apardı yollar.

Göy üzündən uğur yaşı üzüldü,
Damla-damla yarpaqlara süzüldü.
Silahımın qundağına düzüldü,
Sizi döyüşlərə apardı yollar.

### Döyüş qardaşı olarıq

Göylər uğur diləyibdi
Ürəyi təmiz oğula.
Uğur duaçısı olur
Hər cığır, hər iz oğula.

Bu yaş ərənlik yaşıdı.
Səngərə uğur daşıdı...
Qaraca Çoban daşıdı
Dava günü Kirs oğula.

Yolun qar daşı olarıq,
Elin Sur daşı olarıq...
Döyüş qardaşı olarıq
Biz oğullar siz oğula...

### Döyüş bayrağı

Əsgər olub döyüşdən
keçən bayrağım mənim.
Səngərdən ürəklərə
köçən bayrağım mənim.

Göyləri sürmələdi
duman, döyüş bayrağı.
Gerçəkləşdi qəlbimə
daman, döyüş bayrağı!
Sənə biət gətirdi
dövr, döyüş bayrağı!

Döyüş yolun dedi ki,
Qönçə gülün dedi ki,
Göyçə gölün dedi ki,
Qələbəyə yetirdi
səni bayraqlaşdıran
zaman, döyüş bayrağı!..

### Ucal, bayrağım!..

Zəfərdən güc al,
Güc al, bayrağım.
Sənsən varlığım,
Bəxtiyarlığım.
Ucal, bayrağım!..

### Şəhidlik şərqisi

Harayın haqq harayıdı,
Gələrik, dağlar, gələrik.
Qəhərini qardaş kimi
bölərik, dağlar, bölərik.

Duruldarıq kəhrizini,
Şər əyə bilməz dizini...
Yollarından yad izini
silərik, dağlar, silərik.

Döyüş yolu düşməz düyün,
Qüdrət nurudu gördüyün...
Döyüşərik, Vətən üçün
ölərik, dağlar, ölərik...

### Qisas döyüşü

Boylanıb baxmadı gün yaxa-yaxda
Daşlara çırpılan güllə səsinə.
Yerə əyilirdi göylər elə bil,
Sığınıb əsgərin son nəfəsinə.

Daşlığa çəkirdi yollar əsgəri,
Başının üstündə meh dolaşırdı.
Vətəndən halallıq alırdı sanki,
Sanki Vətən ilə vidalaşırdı:

Düşmənin gözünü qamaşdırmağa,
Duman olacağam, çən olacağam.
Qisas döyüşüdü döyüşüm, Vətən,

*Könlüm şeir istəyir*

## Qarabağ bizimdir!..

***Vətən müharibəsində Azərbaycan Ordusu tarixi Zəfər qazandı. Bu Zəfər xalqın Zəfəri oldu, ruhun qələbəsi oldu. Söz-şeir ruhun kimliyini ifadə edən mənəvi sənəddi; ordumuzun qazandığı tarixi Zəfər sözümüzün - şeirimizin də Zəfəri oldu. Şeirimizin bayraqdarı sənsən, Azərbaycan əsgəri!..***

Üç şəhid əsgərin qisası üçün
Dördüncü şəhidin mən olacağam!

Şəhidlərin istəyini döyüş ruhu tək
Avtomatın tətiyinə yığdı barmağı.
"Bu, Əlinin əvəzinə!",
"Bu, Rahimin əvəzinə!",
"Bu, Məmmədin əvəzinə!" -
Avtomatın tətiyini sıxdı barmağı...

Güllələrin istisindən əridi daşlar,
Mərmilərin tüstüsündən boğuldu səngər,
Qumbaranın qəlpələri canına doldu
Ayaq üstə durammadı, yıxıldı səngər.

Qapısı-bacası bağlı səngər,
Tifaqı əzəldən dağlı səngər
Göz açıb-yumunca bir məzar oldu
Neçə erməninin son nəfəsinə.
Göylər şahid oldu son döyüşündə
O gün ölməzliyin təntənəsinə...

### "Qarabağ bizimdir!"...

Ayaqlar toxunanda
Nərdivana dönürdü
Dağın hər çıxıntısı.
Göyə dayaq dağların
Hələ təmas görməyən
Təzə-tər çıxıntısı.

Sərt qayanı, sərt dağı
Çıxıb döyüşənlərə,
Düşməni ucalıqdan
Yıxıb döyüşənlərə
Qələbə ruhu idi
Əsən yellərin səsi,
Çılğınlaşan Qarqarın
Daş tərpədən nəfəsi.
Qayaların sərtini
Kəməndə döndərdilər,
Ərliyi, ərənliyi
Sonuncu döyüş günü
Büləndə döndərdilər.
Yaralanmış Vaqifin
Dağın dağ sinəsinə
Son nəfəsdə qanıyla
Yazdığı kəlmələri
Səməndə döndərdilər.
Şuşada işğalçının
Ümid çırağı söndü,
"Qarabağ bizimdir!" kəlmələri
Əsgər andına döndü...
Bu kəlmənin işığında
Yetirdilər Şuşaya.
Yaralıları da, şəhidləri də
Döyüşə-döyüşə
Çiyinlərində
gətirdilər Şuşaya!..

Döyüşənlər deyirdi ki,
Döyüş nədi, ömür nədi,
ölüm nədi, Vətən deyə!
Ana Torpaq şəhidləri
Uğurladı ölməzliyə!..

Əllərinin şəkilini çəkəcəm
Vətən müharibəsində
sonuncu mərmini atmış döyüşçüyə

Tanrı çəkib bu dağların
güllərinin şəklini,
Güllər görüb gülə dönən
güllərinin şəklini.
Son mərmini atmış əsgər,
görüşünə gələcəm,
Sözlərimlə çəkmək üçün
əllərinin şəklini...

### Qoruyun bu torpağı...

Əzəldən qardaşsınız,
A qardaşım, mərdə siz.
Qılınc sıyırıbsınız
Həmişə namərdə siz.

Qəhəri itirdiniz,
İşğalı bitirdiniz,
Ölüm hökmü verdiniz
Dərd cücərdən dərdə siz.

Gülür Qırxqız yaylağı,
Salamlayır hər dağı...
Qoruyun bu torpağı
Göydə - Allah, Yerdə - siz!..

### Şəhidlik

İgidlər yad izini
Silir nəfəs dərmədən.
Döyüşə Zəfər kimi
Gəlir nəfəs dərmədən.

Səngər olur bənd-bərə,
Döyüşə gələnlərə...
Yağını iki yerə
bölür nəfəs dərmədən.

Zirvədi bayraq üçün,
Közdü hər ocaq üçün...
Döyüşdə torpaq üçün
ölür nəfəs dərmədən...

### Xoş niyyətin əsgəriyik...

Qorqud Dədə, alğışınla doğulmuşuq,
Hər birimiz məhəbbətin əsgəriyik.
Doğu-Batı bir-birini günüləyir,
Görk olası heysiyyətin əsgəriyik.

Göy üzündən ulduz dərər həvəsimiz,
Qarabağı isindirər nəfəsimiz
Dağa-daşa qardaş olar gur səsimiz,
Ovxarlanmış qətiyyətin əsgəriyik.

Necə tarix deməyəsən ötən ana,
Tarix yazdıq ötənləri ana-ana...
And yerimiz - Ana-Vətən, Vətən-Ana,
Vətən boyda sədaqətin əsgəriyik.

Göy üzündə qoşa ulduz dillənmədə,
Gen dərələr ağzınacan sellənmədə,
Cıdır düzü başdan-başa güllənmədə,
Uğur dilə, xoş niyyətin əsgəriyik...

### Murovda təzə yol

O illərdə başın üstən
qara yellər əsdi, Murov.
O yel əsdi...
Əsdi, kəsdi...
İndi əsən
Bir ilahi səsdi, Murov...
Görən deyir:
O yel - elə,
Bu yel - belə...
Təzə yolun
Altı - torpaq, üstü - Murov...

### Əsgər gileyi

Yağan yağış, gözucu
bax ovcumun içinə.
Göylərin şəbnəmini
sağ ovcumun içinə.

Ruh sapına düzül, gəl,
Süzüm-süzüm süzül, gəl...
Göy üzündən üzül gəl,
ax ovcumun içinə.

Düşmə qınağa, bəsdi.
Düşmə yanağa, bəsdi.
Yağdın torpağa, bəsdi,
Yağ ovcumun içinə...

# İdman

## Azərbaycanın qadın güləşçisi Kazanda qızıl medal qazanıb



Azərbaycanın qadın güləşçiləri Rusiyanın Kazan şəhərində keçirilən BRICS Oyunlarında uğurlu çıxış ediblər.

Azərbaycan Güləş Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, bu gün qadın güləşi üzrə yarışın son günü olub. Oyunlara məşqçi Solmaz Adilovanın rəhbərliyi altında 4 idmançı ilə qatılan komandamızın 2 üzvü fəxri kürsüyə qalxıb. Elnurə Məmmədova (53 kiloqram) qızıl, Gültəkin Şirinova (55 kiloqram) isə bürünc medal qazanıb.

Qeyd edək ki, sabah yunan-Roma güləşi üzrə medalçılar müəyyənləşəcək.

## Azərbaycan cüdoçuları Avropa Kubokunda birinci yeri tutublar



Azərbaycan cüdoçuları Sloveniyanın Podçetrtek şəhərində böyüklər arasında keçirilmiş Avropa Kubokunda medal əyarına görə ilk sırada yer alıblar.

Milli komanda iki günün nəticəsinə əsasən, 4 qızıl, 1 gümüş və 3 bürünc medal qazanaraq kişilər arasında ümumi hesabda birinci yeri tutub. Qeyd edək ki, yarışda Nazir Talıbov (66 kiloqram), Nəriman Mirzəyev (73 kq), Məhərrəm İmamverdiyev (81 kiloqram) və İmran Yusifov (+100 kiloqram) qızıl, Kamran Süleymanov (73 kq ) gümüş, Rövşən Əliyev (60 kiloqram), Rəşad Yelkiyev (66 kiloqram) və Camal Feyziyev (+100 kiloqram) bürünc medal əldə ediblər.

## Azərbaycan Paris Olimpiadasına növbəti lisenziyanı qazanıb



Azərbaycan "Paris - 2024" Yay Olimpiya Oyunlarına daha bir lisenziya qazanıb.

Nüfuzlu yarışa növbəti vəsiqəni kamandan oxatma üzrə Azərbaycan millisinin üzvü Yaylagül Ramazanova əldə edib.

Y.Ramazanova iyunun 14-17-də Türkiyənin Antalya şəhərində keçirilmiş lisenziya xarakterli Dünya Olimpiya Təsnifat Turnirində 14 final mərhələsinə yüksəlməklə Olimpiadaya lisenziyanı təmin edib.

İdmançımız 1-ci mərhələdə Qətər təmsilçisi Suha Şayxı 6:0 hesabı ilə məğlub edib. Növbəti mərhələdə polşalı Marina Stax üzərində qələbə qazanılıb - 6:2. 3-cü mərhələdə Yaylagül Ramazanova gərgin mübarizə şəraitində hindistanlı Dipika Kumarini 6:4 hesabı ilə üstələyib. Növbəti mərhələdə digər Polşa təmsilçisi Klaudia Plazana da qalib gələn millimizin üzvü turnirin 8 ən yaxşı idmançısı sırasına düşməyi bacarıb. Bu nəticə ölkəmizə Paris Olimpiadasına növbəti lisenziyanı qazandırıb.

Qeyd edək ki, millimiz turnirdə ümumilikdə beş idmançı (Roman Vengerov, Məhəmmədəli Əliyev, Yaylagül Ramazanova, Svetlana Simonova və Fatimə Hüseynli) ilə təmsil olunub.

İyunun 16-da keçirilən qadınların şəxsi yarışında Svetlana Simonova birinci, Fatimə Hüseynli isə ikinci mərhələdə mübarizəni dayandırıblar.

Kişi oxatanlarımız Roman Vengerov və Məhəmmədəli Əliyev iyunun 17-də mübarizəyə qoşulacaqlar.

Xatırladaq ki, XXXIII Yay Olimpiya Oyunları iyulun 26-dan avqustun 11-dək Fransanın paytaxtı Paris şəhərində keçiriləcək.

**AZƏRTAC-ın materialları əsasında**

Baş redaktorun müavini
mayor
Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
baş leytenant
Elvin VƏTƏNDUST

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 312
Nüsxə 4650